







# Laçında qətiyyətli dövlət iradəsi: səmada möhkəmlənən strateji nüfuz







***"Təkcə torpağa yox, səmalara da sahibik". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu tezisini bölgənin yeni hava limanlarına baxaraq vizual şəkildə oxumaq mümkündür. Laçın Beynəlxalq Hava Limanı Cənubi Qafqazın mürəkkəb geosiyasi mənzərəsində Azərbaycanın həm texnoloji, həm hərbi, həm də diplomatik iradəsinin simvoludur. Dəniz səviyyəsindən 1700 metr yüksəklikdə reallaşdırılan bu möhtəşəm hava limanı fonunda daha dərin geopolitik konturlar var.***

Azərbaycanın müasir tarixində çoxsaylı mühəndislik möcüzələri mövcuddur, Laçın Beynəlxalq Hava Limanı bu siyahıda özünəməxsus yer tutur. Tikinti işləri mürəkkəb relyef, ekstremal iqlim və sıx dağlıq ərazilərdə aparılsa da, nəticədə beynəlxalq standartlara cavab verən hava qovşağı ərsəyə gəlib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində istifadəyə verilən Laçın Beynəlxalq Hava Limanı ölkənin nəqliyyat və iqtisadi xəritəsində strateji önəm daşıyır. Laçın hava limanının təməli 2021-ci ilin avqust ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Bu layihə işğaldan azad edilən torpaqlarda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma siyasətinin tərkib hissəsidir. Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarından sonra regionda üçüncü böyük infrastruktur obyekti olaraq Laçın aeroportu Azərbaycanın beynəlxalq hava limanları sayını doqquza çatdırır. Bu isə ölkənin qlobal nəqliyyat şəbəkəsində daha möhkəm və əlçatan mövqe tutmasına şərait yaradır.

Hava limanının yerləşdiyi Laçın rayonu Qarabağ və Şərqi Zəngəzur bölgələrinin strateji mərkəzlərindən biri kimi önə çıxır. Laçın aeroportu Şuşadan 70, Kəlbəcərdən 60, Laçın şəhərindən isə 30 kilometr məsafədə yerləşir ki, bu da regionun nəqliyyat əlaqələrinin gücləndirilməsinə xidmət edir. Dağlıq relyef və mürəkkəb coğrafi şəraitə baxmayaraq, hava limanı müasir standartlarda, ən son texnologiyalarla inşa olunub. Uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metrdir, bu isə hava limanının ən böyük təyyarələrin, o cümlədən geniş gövdəli sərnişin və yük təyyarələrinin qəbuluna imkan verir. 5 min kvadratmetr terminal binasında sərnişinlər üçün VIP zal, təhlükəsizlik və qeydiyyat sistemləri, baqaj konveyerləri, iaşə və ticarət obyektləri yaradılıb. Terminalın saatda 200 sərnişinə xidmət göstərmə potensialı regionda turist və işgüzar səfərlərin artmasını təmin edəcək. Hava limanının texniki avadanlıqları da avtomatlaşdırılmış sistemlərlə təchiz olunub, bu isə ICAO və IATA standartlarına tam uyğunluq deməkdir. Hava Hərəkətini İdarəetmə Qülləsi 24 saat rejimində beynəlxalq uçuş təhlükəsizliyi qaydalarını təmin edir. Bu imkanlar Laçın Beynəlxalq Hava Limanını qlobal miqyasda rəqabətqabiliyyətli hava limanına çevirir. Strateji baxımdan isə hava limanı Azərbaycanın nəqliyyat infrastrukturu şəbəkəsində kritik rola malikdir. Buradan başlanacaq uçuşlar Şərqi Zəngəzur və Qarabağ regionlarının ölkə və dünya ilə əlaqələrinin sürətli inkişafını təmin edəcək. Bu hava limanı bölgə iqtisadiyyatının, logistikanın, həmçinin turizm potensialının artmasında əsas amil kimi çıxış edəcək.

Bununla yanaşı, Laçın aeroportunun fəaliyyəti Azərbaycanın regional nəqliyyat qovşağı kimi rolunu möhkəmləndirəcək və beynəlxalq əlaqələrdə yeni imkanlar açacaq. Hava limanı təkcə mülki uçuşlar üçün deyil, həm də humanitar, təcili yardım və strateji hərbi nəqliyyat baxımından vacibdir. Laçın hava limanı "Böyük Qayıdış" proqramının logistika onurğası kimi çıxış edir. İşğaldan azad edilmiş ərazilərə qayıdış prosesində hava nəqliyyatının mövcudluğu mühüm əhəmiyyət kəsb edir. Geri dönən vətəndaşlar, dövlət qurumlarının əməkdaşları, tikinti şirkətləri və beynəlxalq tərəfdaşlar artıq Laçın limanı vasitəsilə bölgəyə rahatlıqla gedə biləcəklər.

Laçın Beynəlxalq Hava Limanının açılması nəqliyyat əlaqələrini gücləndirməklə, eyni zamanda bölgənin sosial həyatına və turizm potensialına yeni nəfəs gətirir. Uzun illər işğal altında qalan və müharibədən zərər görən Laçın və ətraf rayonların yenidən dirçəldilməsi prosesində bu hava limanı mühüm rol oynayır. İnsanların doğma torpaqlarına qayıdışı, bölgədə yeni iş yerlərinin açılması, yerli iqtisadiyyatın canlanması üçün hava nəqliyyatının inkişafı həyati əhəmiyyət daşıyır. Hava limanı ilə təmin olunan rahat və sürətli nəqliyyat imkanları regiona daxili və xarici turistlərin axınını artıracaq. Qarabağ və Şərqi Zəngəzur bölgələri zəngin tarixi abidələri, təbii gözəllikləri və unikal mədəni irsi ilə Azərbaycanın ən cazibədar turizm məkanlarıdır. Laçın aeroportu həm də bu gözəlliklərə çıxışı asanlaşdıraraq turizmin sürətli inkişafına təkan verəcək. Yeni hava əlaqələri, həmçinin regionun yerli məhsullarının, sənətkarlıq nümunələrinin və mədəni tədbirlərin dünya bazarına çıxarılması üçün əlverişli şərait yaradacaq. Sosial baxımdan hava limanı bölgəyə gənclərin və peşəkarların qayıdışı üçün stimul olacaq. Bu isə bölgədə əhalinin sabitliyini və sosial rifahı yüksəldəcək. Qısaca, hər guşəsi bir-birindən gözəl Qarabağda mövcud olan tarixi abidələr, kurort zonaları, o cümlədən Kəlbəcərdəki İstisu, Laçındakı yaylaqlar artıq beynəlxalq turistlər üçün əlçatan olacaq. Bu isə o deməkdir ki, yerli əhali üçün yeni iş yerləri, sənətkarlıq və kənd təsərrüfatı məhsullarının satışı və regional brend formalaşması üçün konkret imkanlar yaranacaq.

Üstəlik, Laçın kimi ekoloji həssas bölgədə bu cür irimiqyaslı obyekt ətraf mühitə də zərər vurmayacaq. Hələlik ictimaiyyətə açıqlanan "Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi" sənədləri tam şəkildə mövcud deyil. Lakin rəsmilər bu layihədə "yaşıl texnologiyaların" tətbiq olunduğunu bildirirlər. Söhbət yağış sularının toplanması, tullantıların idarəolunması sistemlərindən gedir. Bundan əlavə, gələcəkdə hava limanının bərpaolunan enerji mənbələri ilə təchiz olunması və karbon emissiyasının minimuma endirilməsi istiqamətində addımlar gözlənilir. Əgər bu vədlər icra olunarsa, Laçın aeroportu həm də ekoloji məsuliyyətin nümunəsinə çevriləcək.

Laçın Beynəlxalq Hava Limanı regionda geosiyasi balansın formalaşmasında da mühüm rol oynayır. Bu hava limanı Şərqi Zəngəzur koridorunun əsas nəqliyyat qovşağı kimi Azərbaycanın beynəlxalq əlaqələrində strateji əhəmiyyət kəsb edir. Quru və dəmir yolu üzrə Naxçıvan və Türkiyə ilə birləşmək ideyası uzun müddət müzakirə olunsa da, Laçın hava limanı Zəngəzur dəhlizinin hava yolu uzantısı kimi çıxış edir. Beləliklə, dəhliz təkcə torpaq üzərində deyil, hava məkanında da formalaşır. Yəni hava limanının açılması regionda nəqliyyat kommunikasiyalarının diversifikasiyasını təmin edir və Azərbaycanı regional nəqliyyat mərkəzinə çevirir. Bu layihə həm də ölkənin müstəqil hava nəqliyyatı xəttinin yaradılması üçün əsasdır. Belə ki, regionda baş verən geosiyasi dəyişikliklər fonunda Bakı həm İran, həm Rusiya, həm də Avropa ilə əlaqələrini şaxələndirməklə yanaşı, öz hava nəqliyyat şəbəkəsini də müstəqil şəkildə formalaşdırır. Regionda sabitliyin və iqtisadi inkişafın təminatı üçün müasir infrastruktur obyektlərinin olması həm də Azərbaycanın beynəlxalq nüfuzunu artırır və onun qonşu ölkələrlə qarşılıqlı əməkdaşlıq səylərinə güc verir. Bu xüsusda Laçın Beynəlxalq Hava Limanının Azərbaycan-Türkiyə əməkdaşlığının simvolu kimi mühüm əhəmiyyət daşıdığını vurğulamaq lazımdır. Bu müstəvidə ilk növbədə Laçın dağlarının ətəyində, azadlığın nəfəs aldığı torpaqda 28 May - Müstəqillik Gününə həsr olunmuş konsertdən öncə yaşanan, ürəkləri titrədən bir səhnəni xatırlamaq yerinə düşər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Xalq şairi Səməd Vurğunun əbədi misralarını səsləndirdi, daha doğrusu, bu torpağın yaddaşını, millətin ruhunu dilə gətirdi:

***"El bilir ki,***
***sən mənimsən,***
***Yurdum, yuvam,***
***məskənimsən…"***

Laçın səmasında o an nəğməyə çevrilən sözlər iki qardaş ölkənin ortaq taleyinə yazılmış dualar idi. Türkiyə liderinin "Biz həmişə Azərbaycanın yanında olacağıq" sözləri səmimi və sarsılmaz vədin təntənəsi kimi dünyaya yayıldı. Hava limanının rəmzi açılış mərasimində Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı iki ölkənin əlaqələrin strateji səviyyədə inkişaf etdiyini göstərir. Bu həm də bölgədə sabitlik, təhlükəsizlik və inkişafa olan ortaq niyyətlərin təzahürüdür. Azərbaycandan qayıdarkən təyyarədə jurnalistlərin suallarını cavablandıran R.T.Ərdoğan bildirib ki, Laçın Beynəlxalq Hava Limanı təkcə Azərbaycan üçün deyil, bütün region üçün strateji qapıdır: "İnfrastruktur sərmayələri sadəcə yollar, binalar, hava limanları demək deyil. Onlar sülhə, sabitliyə və gələcəyə gedən yoldur. Laçın hava limanı da bu baxımdan mühüm simvoldur".

Türkiyənin dövlət başçısının açıqlamaları Laçın Beynəlxalq Hava Limanının təkcə regional nəqliyyat nöqtəsi kimi deyil, həm də Türk dünyasının iqtisadi və siyasi inteqrasiyasında katalizator rolunu oynayacağını bir daha göstərir. Bütün bunların fonunda deyə bilərik ki, Laçın Beynəlxalq Hava Limanı Azərbaycanın postmünaqişə dövründəki strateji vizyonunun bariz təsdiqidir. Bu obyekt təkcə infrastruktura deyil, tarixə, vətənpərvərliyə və gələcəyə qoyulan sərmayədir. Bu limanla Azərbaycan hava məkanını da azad və suveren edir. Səmada qurulan bu strateji yüksəklik Azərbaycanın gələcəyinin üfüqlərini daha da genişləndirir.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**